RAFİQ YUSİFOĞLU

# BÖYÜK ARZUYA GEDƏN YOL



Rəssam **İlqar Tofiqoğlu**
Texniki redaktor **Səlim Əhmədov**

Yığılmağa verilib 18.06.2000.
Çapa imzalanıb 18.08.2000.
Kağız formatı 60x841/16.
Sifariş 2418, Tiraj 4000.
Qiyməti 3000 manat.
"Azərbaycan" nəşriyyatının mətbəəsində
çap olunub.

RAFİQ YUSİFOĞLU

# BÖYÜK ARZUYA GEDƏN YOL

ŞE'RLƏR



"GÖYƏRÇİN"İN KİTABXANASI

*Əziz balalar, "Böyük arzuya gedən yol" müəllimlərin, kitabxana işçilərinin xahişi ilə yazılıb. Kitaba ilin əlamətdar günlərinə aid şe'rlər toplanıb. İnanırıq ki, "Böyük arzuya gedən yol" daim sizinlə birlikdə olacaq, dostunuza, sirdaşınıza çeviriləcəkdir. Arzu və təkliflərinizi bizə göndərsəniz, şad olardıq.*

**Qəlbi təmiz olanların**
**Sözünü haqq eşidir.**
**Ulu Tanrı, yar ol bizə,**
**İşimiz haqq işidir...**

## *1 sentyabr -* Bilik günü

*

### MƏN MƏKTƏBƏ GEDİRƏM

Mən məktəbə gedirəm,
Təptəzə dostlarım var.
Çantamda dəftər, kitab,
Ürəyimdə arzular.

Mən məktəbə gedirəm,
Güc gəlib qollarıma.
Mənim ilk müəllimim
Göz dikib yollarıma.

Mən məktəbə gedirəm,
Sevinir, ellər gülür.
Qanadım yoxdur uçam,
Əlimdə güllər gülür.

Mən məktəbə gedirəm,
Baxır hər yoldan ötən.
Övladların boy atır,
Gözlərin aydın, Vətən!



## BİRİNCİ ZƏNG

Həyəcandan gözümə
Yuxu getməyib gecə.
Birinci zəngdən ötrü
Ürəyim əsir necə.

Qəlbimizdə arzular,
Əlimizdə gül-çiçək.
Yolumuzu gözləyir
Məktəb nəhəng gəmi tək.

Məhəbbətlə izləyir
Bizi doğma baxışlar.
Əl edib yola salır
Qohumlar, dost-tanışlar.

Vuruldu birinci zəng,
Ta bizim nə qəmimiz.
Biliklər ölkəsinə
Yola düşür gəmimiz...



## *5 sentyabr -* Müəllimlər günü

*

## MÜƏLLİM

Hamımızın qəlbində
Yuva qurdu müəllim.
Nadanlardan qorudu
Ana yurdu müəllim.
Vətənin keşiyində
Sayıq durdu müəllim.
Düşmənlərin gözünə
Enən tordu müəllim.
Yolumuzun üstündə
Yanan nurdu müəllim.

## MÜƏLLİM QƏLƏMİ

Müəllimin qələmi
İş görməyə tələsir.
Minaaxtaran kimi
Sətirlər üstə gəzir.

Yaxşı cümlə görəndə
Qanad çalan quş olur.
Hər səhv tapanda, sanki
Bir minaya tuş olur.

Tez kağıza qırmızı
İşarələr düzülür.
Yaralanmış qələmdən
Elə bil qan süzülür...





*18 oktyabr -*
**Azərbaycanın**
**Dövlət Müstəqilliyi günü**

*

## ÜÇRƏNGLİ BAYRAQ

Bu üç rəngli bayrağım
Gözümün işığıdı.
Azadlıq yağışından
Doğan göyqurşağıdı.

Üstündəki ay, ulduz
Gəlir mənim xoşuma.
Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına.

Üçrəngli bayraq bizə
Təsəllidi, dayaqdı.
Yolumuzun üstündə
İşıq saçan mayakdı.



*12 noyabr -*
**Konstitusiya günü**

*

## BİZİM ANA KİTABIMIZ

Bizim ana kitabımız
Ömrümüzün mə’nasıdı.
Xalqımızın taleyinin
Bir sehrli aynasıdı.

Bu kitabın hər kəlməsi,
Hər sözü qanundu bizə.
Bu kitabdan ilham alıb,
Ana yurdumuzu bəzə!

Elimizi, obamızı
Yağıdan mərdliklə qoru!
Bu kitab qollara qüvvət,
Bu kitab gözlərin nuru.

Bu kitaba xor baxanın
Gözləri oyulmalıdı.
Qur’an kimi öpülərək,
Göz üstə qoyulmalıdı...





## *17 noyabr -*
## Milli Dirçəliş günü

*

### MİLLİ DİRÇƏLİŞ GÜNÜ

Azadlıq təşnələri
Meydanlara doldular.
Xalqımın düşmənləri
Saraldılar, soldular.

Bakının küçələri
Sehrli çaya döndü.
Oraq-çəkic çevrilib
Ulduza, aya döndü.

Düyümlənən yumruqlar
Düşmənə ölüm dedi.
Bəsdir bu qədər zillət,
Bu qədər zülüm dedi.

Evdə qalan olmadı
Hamı axışıb gəldi.
Babəkin, Koroğlunun,
Nəbinin ruhu güldü.

El gücü selə döndü,
Qəzəb seli çağladı,
Böyük bir imperiyanın
Sütunları laxladı.

Sevindi böyüyümüz,
Sevindi uşağımız.
Üçrəngli bayraq dönüb,
Oldu göyqurşağımız...

## *28 noyabr -*
## Zəngilanın işğalı günü

*

### ZƏNGİLANIN GÖZÜ QALIB YOLLARDA

Yandırmaqdı
Yağıların peşəsi,
Salamatmı
Görən çinar meşəsi?
Bəsitçayım
İçin-için ağlayır.
Oxçuçayın
Suları göz dağlayır.
Axı niyə
Olduq belə qarabaxt?
O yerlərə
Dönəcəyik bəs nə vaxt?
Bizim üçün
Qəribsəyib yollar da,
Zəngilanın
Gözü qalıb yollarda...





## *31 dekabr -*
## Dünya Azərbaycanlılarının Həmrə'ylik günü

*

### AZƏRBAYCAN TORPAĞI

Bağlara bax, bağlara,
Meyvələri dəyibdir.
Gəlin dərək onları,
Budaqları əyibdir.
Dağlara bax, dağlara,
Qoynu sərvətlə dolu.
Zirvəyəcən ucaldıb
İgid oğullar yolu.
Tarlaya bax, tarlaya,
Bərəkəti bol olsun.
Ürəklərdən ürəyə
Gedən nurlu yol olsun.
Çaylara bax, çaylara,
Çox bulanıb, durulub.
Odun qənimi su da
İşıq olub, nur olub.
Meşəyə bax, meşəyə,
Ağacı var nə qədər.
Sayıb qurtarmaq olmaz
Özünü yorma hədər.
Ağaca bax, ağaca,
Nə qədər budağı var.
Budağa bax, budağa,
Nə qədər yarpağı var.
Deyirəm nə yaxşı ki,
Bu vətən torpağı var.
Qoynunda hər şey bitir,
Hamının anasıdı.
O bizim ömrümüzün
Ən dərin mə'nasıdı.
Bu torpağa qarışıb
Koroğlular, Nəbilər.
Onun hərarətini
Qəlbi buzlar nə bilər?
Bu yer odla yoğrulub,
İşıqları sayrışar.
Neft qanı, qaz nəfəsi,
Kibrit çəksən, alışar.
Babalardan söz açır,
Bir tarixdi hər daşı.
Qoy bizim əlimizlə
Gülüstana çevrilsin
Vətənin hər qarışı...

* * *

Göz dağına dönən ulu Kəpəzin
Zirvəsində soldu neçə gülümüz.
Torpaq üçün vuruşmadıq, vətənin
Qarşısında gödək oldu dilimiz.

Nə vaxtacan yurdumda yad gəzəcək?
Ürəyimiz haqsızlığa dözəcək?
Yağı bizi tapdayacaq, əzəcək,
Yumruq kimi birləşməsə elimiz...





*1 yanvar -*
## Təzə ilin ilk günü

*

### TƏZƏ İL

*Musiqisi Cavanşir Quliyevindir*

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə, il.
Uğurlu qədəminlə
Ömrümüzü bəzə, il.

Kaman gətir, saz gətir,
Şirin bir avaz gətir.
Dön zəfərlər ilinə,
Ürəklərə yaz gətir.

Tez gəl, bizi sevindir,
Yolu, izi sevindir.
Doğmaları gözləyən
Dağı, düzü sevindir.

Üzlərə işıq gətir,
Gözlərə işıq gətir.
Kül altında uyuyan
Gözlərə işıq gətir.

Sevincdən əsir dilim,
Xoş gördük, təzə ilim.
Gəlişinlə yurdumdan
Dərd itsin ilim-ilim.

Yaxamı külək açsın,
Qədəmin ürək açsın.
Sevənlərin qəlbində
Arzular çiçək açsın...

*20 Yanvar*

*

### YADDAN ÇIXMAZ EL YOLUNDA ÖLƏNLƏR

Qış gecəsi başımıza gələnlər
Başdan-başa müəmmadı, təzaddı.
Yaddan çıxmaz el yolunda ölənlər.
Qan göləndə bitən gülmüş azadlıq...

### QƏRƏNFİLƏ DƏYƏN GÜLLƏ

Qaçmağa da qoymadı,
Namərd dörd yanı kəsdi.
Vətənimin gülləri
Harayıma tələsdi.

Qərənfil, bu meydana
Can verməyəmi gəldin?
Yaralı igidlərə
Qan verməyəmi gəldin?

Güllələr haqq, ədalət
Deyən dillərə dəydi.
Təzəcə qönçələyən
Qərənfillərə dəydi.

Sinəm aşsüzən oldu,
Köks ötürdüm dərindən.
Bir qərənfil boylandı
Hər yaramın yerindən...



## ŞƏHİDLƏR XİYABANI

Şəhidlər xiyabanı -
Müqəddəs and yerimiz.
Mərmər daşlara hopub,
Bayatımız, şe'rimiz.

Bizə güllə dəyəndə
Bu torpaq yaralanıb.
Onun sinəsi üstdə
Məzarlar sıralanıb.

Mərdləri qorxutmayıb
Namərdlərin gülləsi.
Hər qəbir - azadlığa
Gedən yolun pilləsi.

Əlimizdə qərənfil,
Dilimizdə haqq sözü.
Bu günahsız millətə
Kömək olsun haqq özü.

Hər baş daşı çevrilib,
Şərəf, qeyrət büstünə.
Bir güllə qoyulubdur
Hər məzarın üstünə.

İgid oğullarımız
Cərgə ilə keçirlər.
Məzarların önündə
Diz çöküb, and içirlər.

Güllələri götürüb,
Döyüşlərə gedirlər.
Günahsız qurbanların
Ruhunu şad edirlər.

Şəhid məzarlarından
Gedən odlu güllələr,
Düşmənlərin başına
Alov saçar, kül ələr.

Geri dönər Xocalı,
Geri qayıdar Şuşa.
Şəhid ruhu şad olar,
Dönər bir qızıl quşa.

Qarabağ torpağının
Üstündə uçar, uçar.
Hamımızın qəlbində
Arzular çiçək açar...

## *26 fevral -*
## Xocalı soyqırımı günü

*

### XOCALI ŞƏHİDLƏRİNƏ

Biz ürcah olduq çaqqala,
Düşsək də bəbir izinə.
Bəsdir bu dərdə dözdüyün,
Namərdin tüpür üzünə.

Neçə-neçə kəndim yanıb,
Düşmən marıqda dayanıb.
Odlu bir nifrət oyanıb,
Qəlbimdə səbir sözünə.

Köksümüzdən vurulmuşuq,
El içində xar olmuşuq.
Biz ölmüşük, qırılmışıq,
Həsrətik qəbir üzünə...



Qan ağlayan nəmli gözlər
Nə qədər yerə baxacaq?
Allah, mənim ürəyimdən
Bu tikan nə vaxt çıxacaq?

Qələm titrəyir əlimdə,
Göynəyir bağrımın başı.
Qaldırmağa oğul gərək
Kirpikdən asılan daşı.

Hər papaqlı layiq deyil
Kişi adı daşımağa.
Biz almasaq bu qisası,
Haqqımız yox yaşamağa...

## *Əlifba bayramı*

*

### SAİTLƏR

"A"nı lağa qoyaraq
"İ" dedi:
- Mən incəyəm.
Hərflər arasında
Mirvariyəm, inciyəm.
"E" də, "Ə" də incədi,
"Ö" də, "Ü" də incədi.
"İ"nin kobud sözündən
Qalın səslər incidi.
Elə bil "Əlifba"nın
Üstünə zülmət çökdü.
Qoymadı dil-boğaza,
"İ" üyütdü, "İ" tökdü.
Dedi ki, sən qalınsan,
"O" da, "U" da qalındı.
"I" sizdən də betərdi.-
"A" küsdü,
"A" alındı.
Söylədi:
- "Əlifba"nın
İlkin səsi mənəm, mən.
Bil ki, bütün səslərin
Sərkərdəsi mənəm, mən.
Nə olsun ki, incəsən,
Dostum, çəkmə özünü.
İlki mən, sonu mənəm
"Ana", "Ata" sözünün.
Nə olsun ki, qalınam,
"A"yam, "A"yam, "A"'yam mən,
Hər səs bir ulduzdusa,
Şəfəq saçan ayam mən.



Utan kobud sözündən
Yana-yana qal indi.
"Ana" sözünə qalın
Deyən özü qalındı...

## SAMİTLƏR

Eşitmirsən, kar samit?
Gözün görmür, kor samit?
Başıma nə gətirdin
İmtahanda gör, samit?
Saitlərə qoşulub,
Sözdən çələng hör, samit.

## YEDDİNCİYƏ KEÇƏN ÇANTA




Qardaşım çantamızı
Bu gün dəyişik salıb.
Açanda kitabları
Duruxub, çaşıb qalıb.
Gülüşüblər, deyiblər:
- Daha iş işdən keçib.
Qardaşımın çantası
Dördüncüdən birbaşa
Yeddinci sinfə keçib...

## BÖYÜK ARZUYA GEDƏN YOL

Görəcəyəm adi işlər
Məni səsləyər, haraylar,
Xırda kərpiclər olmasa,
Ucalmaz böyük saraylar.

Çeşmələrin duruluğu
Dağdan keçər, daşdan keçər.
Böyük arzuya gedən yol
Kiçik-kiçik işdən keçər...

## KÜSƏN HƏRFLƏR, NADİNC HƏRİFLƏR

Məktəbdən qayıdanda
Quzu dönüb şir olub.
Divar yazı taxtası,
Şüşə tabaşir olub.

Ev tikən, suvaq çəkən
Əllər inciyib, küsüb.
Öz nadinc övladından
Ellər inciyib, küsüb.

"Əlifba" peşimandı:
- Gör kimlə dost olmuşam?
Az qalıram hönkürəm,
Bulud kimi dolmuşam.




Binalar nə kökdədi,
Suvaqlar cızıq-cızıq.
Hərflər dörd tərəfdən
Boylanır yazıq-yazıq.

Gör nə kökə düşüblər?
Hamısı əyiş-üyüş.
Divarlara yazılıb
Ədəbsiz kəlmə, söyüş.

Böyük-kiçik görəndə
Alışırlar, yanırlar.
Yazanın əvəzinə
Hərflər utanırlar...

# DURĞU İŞARƏLƏRİ

## NÖQTƏ

Elə bil qara xaldı
Nöqtə sözün sonunda.
Baxma kiçikliyinə,
Xidməti var onun da.
Heç nə gərəksiz deyil,
Hər şeyin öz yeri var.
O olmasa, cümlələr
Bir-birinə qarışar.
Nöqtə var isə əgər
Cümlə bitib deməli.
Onun durduğu yerdə
Biz də dayanaq gəlin.




## QOŞA NÖQTƏ

Bənzəyir gözdən düşən
Bir cüt yaşa nöqtələr.
Qarışqa gözləridir
Sanki qoşa nöqtələr.

## NÖQTƏLİ VERGÜL

Mən də qoşa nöqtə tək
Bir cüt gözəm, bəri dur.
Alt gözümdən yaş axır,
Üst gözüm qupqurudur.



## VERGÜL

Quyruq qoysan nöqtəyə
Dönüb vergül olacaq.
Nöqtə kimi cümlənin
Sonunda olmur ancaq.
Sözlərin arasında
Məskən salıb özünə.
Üzüyola cümlələr
Baxır onun sözünə.
Sanki çatılmış qaşdır,
Vergülə bax, vergülə.
Əgər o qoyulubsa,
Cümlə bitməyib hələ.
Yazı yazanda dost tək
Köməyimə gəlir o.
Cümlənin mə'nasını
Dəyişə də bilir o.




## ÜÇ NÖQTƏ

Cümlə var, qarşısını
Bir nöqtə kəsə bilmir.
Sətirlərin sonunda
Üç nöqtəyə baxın bir.
Nöqtələrin dediyi
Sözləri arif anlar.
Sanki hansı fikrinsə
Ayaq izidir onlar...

## NİDA

Çox zaman cümlələrin
Sonunda olur nida.
Nöqtə üstündə duran
Dirəyə bənzər o da.
Sevinc, qorxu, həyəcan,
Təəccüb oyadır bizdə.
Onu görcək titrəyir
Ürək də, dil də, söz də.

## SUAL

Sual bizim nidanın
Qocalığıdı bəlkə?
Beli tamam bükülüb,
Bir gör düşüb nə kökə?
Duruşu salır bizi
Çox zaman dikə, dağa.
Sözləri biçəcəkmi?-
Bənzəri var orağa.
Yorulmur, hey soruşur
Deyingən bir qarı tək.
Ona cavab verməyə
Sözlər tapasan gərək...



## DIRNAQ İŞARƏSİ

Sözlərin mə'nasını
Bə'zən dəyişirəm mən.
Yaxşını sal dırnağa
Fərqi olmasın pisdən.



## DEFİS

Mən tirenin yanında
Balacayam, körpəyəm.
Əks, yaxın mə'nalı,
Bir də təkrar sözlərin
Arasında körpüyəm.

## TİRE

Bu tiredir, yazanda
O da işə yarayar.
İki defis alınar
Onu bölsən yarıya.

## SUAL, NİDA

Nidaya bax, sualla
O, yanaşı duranda,
Daha kəsərli olur
Deyilən sözlər onda.



## APASTROF

Mən də apastrofam,
Bənzəsəm də vergülə,
Oxşarlıq tapmazsınız
İşimizdə bir gilə.
Axı hər işarənin
Vardır öz vəzifəsi.
Uzun tələffüz elə
Yanımda olan səsi...
Of, Of, Apastrof,
Səni gözləyir
Katastrof...

## *8 Mart -*
## Beynəlxalq Qadınlar günü

*

### LAYLANLA DÜNYAYA NUR ƏLƏNİBDİR

Gecələr yatmayıb bir keşikçi tək,
Anacan, mənimçün layla çalmısan.
Qəlbində arzular açıb gül-çiçək,
Sən bu arzulardan qüvvət almısan.

Bilirəm, dolduqca mən boya, başa
Qəlbində arzular qönçələnibdir.
Yaşa, əziz ana, səni yüz yaşa,
Laylanla dünyaya nur ələnibdir.



### 8 MART

Dünyaya göz açmısan
Sən martın səkkizində.
Utancaq bir sevinc var
Bu gün sənin üzündə.
Sənin ki, ad günündür,
Ay dost, utanmaq neyçün?
Analar bayram edər
Oğullar doğulan gün,

### ANANIN SƏSİ

Necə gözəldi, necə təmizdi
Səni axtarıb, ananın səsi.
Ən şux nəğmədən doğma, əzizdi
Ananın səsi, ananın səsi...

## *21 Mart -*
## Novruz bayramı

*

### NOVRUZ TONQALLARI

Çatıb Novruz tonqalları
İlk baharı gözləyirik.
Biz günəşə ocaqlarla
Kömək etmək istəyirik.

### SƏMƏNİ

Yaşıl alova döndüm
Nəlbəkidən boylanıb.
Zəmi ola bilərdim
Mən vaxtında oyanıb.
Üç-dörd günün içində
Bir ovuc çəmən oldum.
Bu baharın, bu yazın
Qurbanlığı mən oldum.

### YAŞIL İŞIQ

Ağaclara baharın
İliq nəfəsi dəycək,
Budaqlarda yarpaqlar
Yandı yaşıl işıq tək.
Tez ol, tez ol, əzizim,
Bizi səsləyir bahar.
Açılıb meşələrin
Qoynuna gedən yollar.





## YAŞIL ALOV

Yaz gəlir, tumurcuqlar
Budaqları bəzəyir.
Onlar kibrit çöpünün
Kükürdünə bənzəyir.
Bu çöplər alışanda
Çox gözəl görünəcək.
Quru meşə yamyaşıl
Alova bürünəcək...

## YAZ NƏNƏ

Üşüyən yuvasız quşlar
Şaxtaya qarğış elədi.
Axşamdan səpilən qarı
Yaz nənə yağış elədi.



## QARANQUŞUN DÖŞÜNDƏ

Yaz gələndə özüylə
İlıq külək gətirir.
Qaranquş öz döşündə
Bizə çiçək gətirir.
Onun zərif köynəyi
Gör necə saralıbdır?
Günəşin işığından
Elə bil nur alıbdır.
Çiçəklərin dalınca
Budaqlara bar gəlir.
Qaranquşun döşündə
Yurduma bahar gəlir.

## YAZ GƏLDİ

Yaz gəldi, qar əridi,
Torpaqdan açıldı don.
Çiçəklədi ağaclar,
Çöllər geydi yaşıl don.
Təbiətin qoynuna
Açıldı bir pəncərə.
Quzular ota cumdu,
Uşaqlarsa pəncərə...

## *21 mart -*
## Beynəlxalq poeziya günü

*

### ŞAİR OYUNCAĞI

Hər kəsin olur
Öz oyuncağı.
Şair uşaqdı,
Söz - oyuncağı.

Sözlə ev tikir,
Sözlə yol çəkir.
Kağızın üstdə
Söz-ağac əkir.

Sözdən düzəldib
Durna qatarı,
Uçan quşları
Geri qaytarır.

Üşüyənlərə
Söz ocaq olur.
Susuzlayana
Söz bulaq olur.

Söz közə dönüb
Qəlbi isidir.
Şairlər sözün
Pərvanəsidir.

Yazıb yaradır,
Yoruldum demir.
O, bir maqnitdi,
Hər söz bir dəmir.





Qələm budaqdı,
Ona söz qonur.
Gözəl fikirlər
Geyir söz donu.

Gözünə baxsa
İlahi gözlər,
Onun qəlbində
Sayrışar sözlər.

Dediyi kəlmə
Gözü yaşardır.
Şairi onun
Sözü yaşadır...

### SÖZ AĞACI

Hikmət təşnəsi,
Şe'r acıyam.
Elə bil ki, mən
Söz ağacıyam.

Barlı budaqdı
Qələm əlimdə.
Söz qönçə tutub
Mənim dilimdə.

Ürəyimdəki
Diləyə bəndəm.
Əsən bir xəfif
Küləyə bəndəm.

O əssə, hava
Təzələnəcək.
Kağız üstünə
Söz ələnəcək...



## *2 aprel -*
## Kəlbəcərin işğalı günü

*

### MUROVUM

Murovum, Murovum,
Bir ovun, bir ovun!
Yaxınkən uzaqsan,
Ancaq üzüağsan.
Qalıbmı görəsən
Qoynunda izimiz?
Sənə üz tutmağa
Gələrmi üzümüz?
Murovum, Murovum,
Bir ovun, bir ovun!
Çəkirsən hər gün ah,
Bizdəmi hər günah?

## *8 may -*
## Şuşanın işğalı günü

*

### OCAQLARI SÖNƏN YURDUM

Nə çox idi heyrətindən
Bəxtəvərə dönən burda.
Od alardı çiçəklərdən,
Alışardı sönən burda.

Gözəlliyə əl açmışdım,
Qəlbdə arzu gül açmışdı.
Xarıbülbül gül açmışdı,
Xoşbəxt idim dünən burda.

Uydum namərdin birinə,
Dərdim kök atdı dərinə,
Tarın, kamanın yerinə
Mərmilərdi dinən burda.

Analar qara bağlasın,
Şuşamı Tanrı saxlasın.
Bir cüt göz gərək ağlasın,
Ocaqları sönən yurda...

## SONUNCU ZƏNG

Dağa-daşa salsın sizi hər fikir,
Ürəkdə ayrılıq nidası qalsın.
Vurun, elə vurun o son zəngi ki,
Hər vaxt qulağımda sədası qalsın.

Şirin xatirələr düzülsün səfə,
Məktəbin seyrinə çıxaq yenidən.
Qoyun dərsə girək sonuncu dəfə,
Qənimət götürək son kəlməni də.

Müəllim önündə indi əyil ki,
Onsuz keçən ömür boranlı qışdır.
Ay dost, axı bu zəng son zəng deyil ki,
Qurub-yaratmağa ilk çağırışdır.

* * *

Həyat bir sehrli dəniz,
Hərəniz bir adasınız.
Son zəng elə bil cümlədi,
Siz sonuncu nidasınız.
On il bundan əvvəl gələn
Bir sehrli sədasınız.
Bu gün sevdalı insanlar,
Sabah ana-atasınız,
Arzulardan arzu doğur,
Arzulara çatasınız.
Əzizlərim, siz hər yaşın
Sevincini dadasınız..



# *28 May -* Azərbaycan Demokratik Respublikasının yaranması günü

*

## 28 MAY

Yurdumun adı yazılıb,
Ölkələrin sırasında.
Aylar, günlər arasında
Əziz günüm, ayım mənim,
28 Mayım mənim!

Tarix necə keşməkeşli,
Azadlığın yolu uzun...
Səkkiz guşəli ulduzum,
Şəfəq saçan ayım mənim,
28 Mayım mənim!

Bayrağımın kölgəsində
Çiçək açdı dağım, daşım.
Bəxtiyar payızım, qışım,
Yazım mənim, yayım mənim,
28 Mayım mənim!

Nə ətirli çiçək imiş
Babalarımın dərdiyi.
Ulu tanrının verdiyi
Müstəqillik payım mənim,
28 Mayım mənim!



## *15 iyun -*
## Qurtuluş günü

*

### HEYDƏR BABA

Heydər baba, xalqımın
Ağsaqqalı, rəhbəri.
Zəkasından nur alır
Yurdumuzun səhəri.

Əməliylə, işiylə
Yadları çaşbaş salar.
Elə bil düşmənlərin
Başına bir daş salar.

Xalqına xor baxanın
Sinəsinə dağ çəkər.
Düşmən onun önündə
Təslim olar, diz çökər.

Heydər baba, xalqımın
Ümid yeri, pənahı.
Gözlərindən boylanır
Xalqımızın sabahı.

İnanır həqiqətə,
Haqq məğlub ola bilməz.
Belə rəhbəri olan
Xalq məğlub ola bilməz...





### ATATÜRK

İllər, əsrlər boyu
Baş əymədi yada türk.
Mərd olmasaydı, onu
Salardımı yada türk?!
Azadlıq savaşında
Düşdü min yol oda türk.
Zəfərlər çalmaq üçün
Gəldi bu həyata türk.
Çapdı Şərqdən Qərbəcən
Süvar olub ata türk.
Babaların yolunu
Əziz tutdu Atatürk.
Gördü yaxşı-yamanı,
Qovdu çəni, dumanı.
Qoyardımı zamanın
Girdabında bata türk,
Atatürk?!
Dərd tüstü, gözlər baca,
Arzu çox, yollar haça.
Dedi: - Gərək ən uca
Zirvələrə çata türk,
Atatürk.
Önə verdi döşünü,
Gördü elin işini,
Azadlıq günəşini
Qoyardımı bata türk,
Atatürk?!



*18 iyun* -
## Laçının işğalı günü

*

### LAÇINIM

Niyə düşdü gözlərimiz işıqdan?
Yaxşı kimi ayrı düşdük Aşıqdan.
Sənsiz anam, bacım yolar saçını,
Ulu yurdum, qibləgahım, Laçınım.

Torpağında bircə dam-daş qalmadı,
Həkərinin gözündə yaş qalmadı,-
Selə dönüb minnətimə qaçanım,
Dağ döşündə qəribsəyən Laçınım.

Yurdum yağı pəncəsində əsirdi,
Qəlbim dözür bu hicrana, nə sirdi?
Nə durmuşuq, gözləyirik haçanı?
Bəs kim xilas eləyəcək Laçını?

Yol gözləyir Yaxşı Sarı Aşıqla,
Səni görsəm, könlüm dolar işıqla,
Şəfəq kimi qəlbimə nur saçanım,
Laçınım.

Ayrı oba deyil mənim gərəyim,
Həsrətindən çat-çat olan ürəyim,
Sənə doğru uçum-uçum uçunur,
Laçınım! Laçınım! Laçınım!..



*26 iyun* -
## Silahlı Qüvvələr Günü

*

### AZƏRBAYCAN ƏSGƏRİ

Azərbaycan əsgəri
Canını əsirgəməz.
Vətən üçün son gilə
Qanını əsirgəməz.

Qəhrəmanlıq göstərib,
Düşməni mat qoyar o.
Vətənə xor baxanın
Gözlərini oyar o.

Döyüşdə şirə dönər,
Sel kükrəyər qanında.
Ədəb-ərkan gözləyər
Ağsaqqalın yanında.

Ona ruh verən, eli
Qorumaq həvəsidi.
Babəkin, Koroğlunun,
Həzinin nəvəsidi.

Vətən çörəyi ilə
Boya-başa yetibdir.
Bığ yerində elə bil
Bənövşələr bitibdir.

Təzəcə süvar olub
O, zirehli bir ata.
Misri qılınc əlində
Dönübdür avtomata.





Qəlbinə nur gətirən
Tardı, kamandı, sazdı.
Onun damarlarında
Axın Kürdü, Arazdı.

Qeyrətini görəndə
Yağı qorxar, ah çəkər.
O, dağlara sığınıb,
Düşmənlərə dağ çəkər.

Azərbaycan əsgəri
Bu torpağı güldürər.
Bir əlində avtomat,
Bir əliylə gül dərər.

## MÜQƏDDƏS TORPAĞA SÖYKƏN

Əllərimiz qana batıb,
Dost, bizimki keçib daha.
Müqəddəs torpağa söykən,
Torpaq güllə keçirmir ha!

Ya azadlıq, ya da ölüm
Yolunu seçmək yaxşıdı.
Vətəndən keçməkdəndisə,
Dünyadan köçmək yaxşıdı.

İnsan oğlu yağılarla
Döyüşdükcə mətinləşir.
Torpaq qanla yoğrulduqca,
Doğmalaşır, vətənləşir...



Üstümüzə yağı gəlsə,
Dağlar bizə səngər olar.
Gərək bütün Azərbaycan
Ucdantutma əsgər ola...

## YARALI ƏSGƏR

Həkimlər döyüşçüyə
Sağlamlıq diləyiblər.
Bu əsgərin qolunu
Körpə tək bələyiblər.

Ağ tənzifin içində
Qızıl bulaq çağlayır.
Bu sarğı bəndə dönüb,
Axan qanı saxlayır.

Çəkilibdir tarıma,
Yaranı sıxır, əzir.
Zoqquldayan barmaqlar
Yuxuda tətik gəzir.

O yaralı əllərin
Bələyi açılacaq.
Naxələf düşmənlərin
Arzusu puç olacaq...



## *22 iyul -*
## Milli Mətbuat günü

*

### "GÖYƏRÇİN"İM

Musiqisi *Nailə Mirməmmədlinindir*

Ömrün boyu ucalmısan,
Ləyaqətlə yaşamısan.
Qanadında sən ellərə
Sevinc, fərəh daşımısan.

N ə q a r ə t

Körpələrin ürəyinə
Cığır salan "Göyərçin"im.
Azərbaycan göylərində
Qanad çalan "Göyərçin"im.

Hey qanad çal, üstümüzə
Şe'r, hikmət, nağıl yağsın.
Gəlişinlə ömrümüzə,
Günümüzə günəş doğsun.

N ə q a r ə t

### "GÜNƏŞ"

Musiqisi *Rəşid Şəfəqindir*

Başımızın üstündə
Məhəbbətlə yanmısan.
Nurlu şəfəqlərinlə
Keşikdə dayanmısan.

N ə q a r ə t

Səadətə, ağ günə
Daim yol açan "Günəş".
Uşaqların ömrünə
Gün tək nur saçan "Günəş".

Boylanmısan illərin
Əngin üfüqlərindən.
Azərbaycan nurlanıb
Sənin şəfəqlərindən.

N ə q a r ə t

*23 iyul -*
**Ağdamın işğalı günü**
*21 avqust -*
**Füzulinin işğalı günü**
*22 avqust -*
**Cəbrayılın işğalı günü**

*

## QARABAĞIM YENƏ GERİ DÖNƏCƏK

Kim xəyanət eləyibsə Ağdama,
Onun nankor gözlərinə ağ dama.

Füzulini verən əllər qurusun,
Cəbrayılda toy məclisi qurulsun.

Qarabağın nə dağı, nə aranı?-
Üzdü bizi ayrılığın boranı.

Hər tərəfi çiskin, duman alıbdır,
Dağlarımın gözü yolda qalıbdır.

Düşmənlərin od-ocağı sönəcək,
Qarabağım yenə geri dönəcək.

*31 avqust -*
**Qubadlının işğalı günü**

*

## QUBADLIM

Əziz *Turala*

Yadıma dağların, düzlərin düşür,
Kül altda uyuyan közlərin düşür.
Yoluma dikilən gözlərin düşür,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?

Qızıldaş əzəldən sinə dağlıdı,
Çayzəmiyə gedən yollar bağlıdı,
Bu miskin görkəmin məni ağrıdır,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?

Qoca Sak hirslənib Xacamsaxlıda,
Dönüb Ballıqaya qara buluda.
Unuda bilmərik səni, unuda,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?

Çardaxlı dağları kövrəlib, dinib,
Əyinin, Göyallın işığı sönüb,
Başarat - həşarat yurduna dönüb,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?

Zəhərə çevrilib ömrün şəkəri,
Hönkürür Bərgüşad, dinir Həkəri,
Söndümü bəxtimin tale ülkəri?-
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Darıxma, qoynuna qayıdacağıq...

# TƏZƏ BAYATILAR

Bayatı, ay bayatı,
Olmaz sözün boyatı.
Bir əsgər olacağam,
Mən böyüyüb, boy atıb.

Adım gəzəcək dildə,
Dərdim axacaq seldə.
Qıratlar kişnəyəcək
Çardaxlı Çənlibeldə.

Dağ başında qara bax,
Üstün alan sara bax.
Düşmənin tapdağında
Qala bilməz Qarabağ.

Yol vermə yada, Şuşa,
El gedər bada, Şuşa.
Sənin həsrətindəyəm,
Can sənə fəda, Şuşa.

Əliboş dönmə ovdan,
Qorxma qardan, qırovdan.
Bizsiz yaman darıxıb,
Xəbər gətir Murovdan.

Duracam daşın altda,
Bərk yağışda, gürşadda.
Çiməcəm Həkəridə,
Çiməcəm Bərgüşadda.

Güldən çələng hörəcəm,
Mən o günü görəcəm.
Çıxıb Cıdır düzünə,
Xarıbülbül dərəcəm...



## KİTABIN İÇİNDƏKİLƏR


Ön söz ........ 4
Mən məktəbə gedirəm ........ 5
Birinci zəng ........ 6
Müəllim. Müəllim qələmi ........ 7
Üçrəngli bayraq ........ 8
Bizim ana kitabımız ........ 9
Milli dirçəliş günü ........ 10
Zəngilanın gözü qalıb yollarda ........ 11
Azərbaycan torpağı ........ 12
Təzə il ........ 4
Yaddan çıxmaz el yolunla ölənlər
Qərənfilə dəyən güllə ........ 15
Şəhidlər xiyabanı ........ 16
Xocalı şəhidlərinə ........ 18
Saitlər ........ 19
Samitlər. Yeddinciyə keçən çanta
Böyük arzuya gedən yol ........ 20
Küsən hərflər, nadinc həriflər ........ 21
Durğu işarələri ........ 22
Laylanla dünyaya nur ələnibdir
8 Mart. Ananın səsi ........ 26
Bahar şe'rləri ........ 27
Şair oyuncağı ........ 30
Söz ağacı ........ 31
Murovum ........ 32
Ocaqları sönən yurdum ........ 33
Sonuncu zəng ........ 34
28 May ........ 35
Heydər baba ........ 36
Atatürk ........ 37
Laçınım ........ 38
Azərbaycan əsgəri ........ 39
Müqəddəs torpağa söykən ........ 40
Yaralı əsgər ........ 41
"Göyərçin"im ........ 42
"Günəş" ........ 43
Qarabağım yenə geri dönəcək ........ 44
Qubadlım ........ 45
Təzə bayatılar ........ 46


28 MAY
8 MART
17 NOYABR